# Ermənistan mətbuatından etiraf:

# Azərbaycan hərbi üstünlük qazandı

Cəbhədə baş verən son olaylar bir daha düşmənə Azərbaycan Ordusunun gücünü, qüdrətini əyani şəkildə nümayiş etdirdi. Düşmən çoxsaylı ciddi zərbələr aldı, xeyli sayda hərbi texnika və hərbi qulluqçusunu itirdi. Ermənistanda da, onun mətbu orqanlarında da açıq şəkildə etiraf edilir ki, son döyüşlərdə işğalçı tərəf çoxsaylı itkilərə məruz qalmaqdadır. O da vurğulanır ki, yaralıların yerləşdirilməsi üçün Qarabağdakı hospitallarda yer qalmayıb və onlar helikopterlərlə, avtomobillərlə Yerevana göndərilir.













*"Haynews.am":*

## "Erməni ordusunun bir bölüyü tam məhv olub, bir hərbi hissənin şəxsi heyəti isə fərarilik edib"

Ermənistanın "Haynews.am" saytı yazır ki, döyüşlərdə "Dağlıq Qarabağ müdafiə ordusu"nun bir bölüyü tam məhv edilib. 50 erməni hərbçisinin isə taleyi məlum deyil. O da vurğulanır ki, döyüş əməliyyatları zamanı ərazidəki alayın hüquqşünası da öldürülüb. Azərbaycan Ordusunun həmlələrindən sarsılan ermənilərin hərbi hissələrindən birinin hərbi qulluqçuları isə tam heyətdə fərarilik edib.

"Haynews.am" saytı yazır: "Şahidlərdən biri bizə bildirdi ki, vurulmuş maşında 6 hərbçi ölüb. Yerli hospitaldan bizə ora daxil olmuş 12 yaralı haqqında bildirdilər, hansılardan ki, 5-nin vəziyyəti ağırdır. Ağdərə rayonu istiqamətində isə 80 nəfər itki verilib".

*"Armenianreport.com":*

## "Ağır vəziyyətə düşmüş Ermənistan müttəfiqləri tərəfindən əzildi və alçaldıldı"

Baş verənlər fonunda "Armenianreport.com" diqqəti ona yönəldir ki, Azərbaycan Müdafiə Nazirliyi şəhidlərinin sayını açıqlasa da, Ermənistan Müdafiə Nazirliyi real itkiləri gizlədir və susur: "Erməni jurnalistlər məlumatları mülki vətəndaşlardan, tibb mərkəzlərindən, ölən əsgərlərin gətirildiyi kilsələrdən və ya təsadüfi şahidlərdən alırlar. Şahidlər isə dəhşətli faktlar deyirlər. Bildirirlər ki, yaralıların sayı o qədərdir ki, onları daşımaq üçün helikopterlər çatmır, avtomobillərlə daşıyırlar. Ona görə də onlar yolda ölürlər. Həkimlər çatışmır, dərmanlar yoxdur".

Nəşrdə yer alan digər məqalədə isə qeyd olunur ki, ağır vəziyyətə düşmüş Ermənistan müttəfiqləri tərəfindən əzildi və alçaldıldı. Azərbaycanın dərhal iki müttəfiqi Türkiyə və Pakistan isə Bakıya öz köməyini təklif ediblər: "Pakistanın Müdafiə Nazirliyi Azərbaycan hökumətinə hərbi köməyini təklif etdi. Türkiyə Prezidenti və Baş naziri isə Azərbaycana açıq dəstəklərini rəsmən bildirdilər".

Məqalədə sonda vurğulanır ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvləri olan Rusiya, Qazaxıstan, Belarus, Tacikistan və Qırğızıstan tərəfindən isə Ermənistana analoji dəstəklə bağlı heç bir işarə də olmadı.

*"Planetaarmenia.ru":*

## "Erməni əhali təşviş içində qaçır"

Ermənistanın "Planetaarmenia.ru" saytı Qarabağdakı döyüşlərdən yazıb. Sayt təmas xəttinə yaxın yerləşən əhalinin təşviş içində qaçdığını qeyd edir. Bəzi sakinlər isə zirzəmilərdə gizlənirlər. Azərbaycan tərəfi itkilərini açıqlasa da, Ermənistan bu barədə rəsmi məlumat yaymır: "Bizim itkilərimiz təkcə ölənləri hesaba alsaq yüzdən çoxdur".

*"Komsomolskaya Pravda":*

## "Şuşa bomboşdur"

Erməni mediasında o da bildirilir ki, Azərbaycan Ordusunun aprelin 2-dən başlayaraq təmas xəttinin Ağdərə-Tərtər, Ağdam-Xocavənd və Füzuli istiqamətlərində endirdiyi zərbələr ermənilər arasında əsl təşviş yaradıb.

Rusiyanın nüfuzlu "Komsomolskaya Pravda" qəzeti isə əslən Qarabağdan olan erməni jurnalist Şaqen Nazaryandan işğal altında olan Azərbaycan ərazilərində nə baş verdiyi haqda soruşub. Şaqen Nazaryan aşağıdakıları bildirib: "Mən özüm Rusiyadayam, ancaq bütün qohumlarım, o cümlədən anam Dağlıq Qarabağdadır. Onunla danışmışam, deyir ki, kişi əhalisi arasında səfərbərlik gedir. Şuşa şəhəri bomboşdur, hamı evlərə sığınıb. Cənub istiqamətdə-Hadrut tərəfdə isə hələ də şiddətli döyüşlər gedir.Orada mənim əmim oğlanları və bacım yaşayır, anam onları oradan çıxarıb Şuşaya aparmağa çalışır. Əgər situasiya dəyişməsə ola bilsin, uşaqları dəhlizlə Yerevan tərəfə çıxarsınlar. Şuşa şəhərində isə həyat demək olar ki, ölüb. İnsanlar küçəyə çıxmır. Şuşa Stepanakertdən 10 kilometr məsafədədir. Şuşasız Qarabağdan Ermənistana yol olmazdı".

*"Sputnik":*

## "Ağdərəni insanlar kütləvi tərk edir"

Rusiyanın "Sputnik" beynəlxalq xəbər agentliyinin Ermənistan versiyasının müxbirləri isə Ağdərə şəhərində hökm sürən vəziyyət barədə öz reportajlarında da bəhs ediblər. Reportajda deyilir ki, şəhər tamamilə boşdur, insanların bir çoxu Xankəndiyə üz tutub. Qalanlar isə sığınacaqlardadır: "Şəhərin küçələrində heç bir hərbi texnika gözə dəymir. Ancaq Xankəndiyə gedən yolda çoxlu mülki maşınlar gözə dəyir".

Daha əvvəl sosial şəbəkələrdə yayılan məlumatlardan məlum olurdu ki, erməni hərbçiləri işğal altındakı ərazilərdən kütləvi şəkildə qaçan mülki şəxsləri dayandırmağa çalışır. Dağlıq Qarabağdakı qondarma rejimin "hökuməti" isə təsdiq edir ki, Ağdərənin Madagis kəndindən sakinlər tamamilə evakuasiya olunub, Ağdərədə isə sakinlər sığınacaqlarda gizlənir...

## Erməni əsgərlərinin yeganə çıxış yolu fərarilik və intihardır

O da vurğulanır ki, təkcə ötən ay daxili çəkişmələr, intizamsızlıq, silahla davranma qaydalarının pozulması və özünəqəsd nəticəsində təkcə rəsmi açıqlamalara görə, Ermənistan ordusunda 5 nəfər ölüb, 10 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb. "Planetaarmenia.ru" yazır ki, Ermənistan hakimiyyəti bütün üsullardan istifadə edərək ordudakı neqativ halları və ölüm faktlarını gizlədir. Hətta bunu hüquqi cəhətdən rəsmiləşdirməyə və zor gücünə öz xeyrinə məhkəmə qərarlarının çıxarılmasına da nail olur: "Lakin bütün bu qadağalara baxmayaraq, sosial şəbəkələrdə və açıq mənbələrdə yayılan məlumatların təhlili göstərir ki, ordumuzda vəziyyət bizim təsəvvür etdiyimizdən də qat-qat acınacaqlı, ağır və ciddidir. Ordudakı ədalətsizliyin, aclığın, səfalətin və digər neqativ halların qurbanları fiziki və psixoloji cəhətdən zəif, düşdüyü mühitə uyğunlaşa bilməyən gənc əsgərlərdir. Bu vəziyyətdən yeganə çıxış yolunu isə onlar intiharda, özlərinə müxtəlif bədən xəsarətləri yetirməklə xidmətdən boyun qaçırmaqda görürlər".

*"Aravot.am":*

## "Əsgərlər panika içərisindədirlər"

"Aravot.am" saytının yaydığı xəbərə görə, həm daxili ziddiyyətlər, həm də qoşunların təmas xəttində baş verənlər erməni hərbçiləri arasında itkilərin sayını artırır. Qeyd olunur ki, aprelin əvvəlində baş verən atışmada erməni ordusu yenidən çoxsaylı hərbçi itkisinə məruz qalıb. Amma itkilər təkcə cəbhədəki atışmalar hesabına olmur: "Ermənistan hakimiyyətinin qadağalarına baxmayaraq, sızan məlumatlara əsasən, belə bir nəticəyə gəlmək olar ki, ordumuzda xidmətdən yayınma məqsədilə özünə xəsarət yetirmə, sui-qəsd təbii haldır. Amma narahatçılıq doğuran daha bir hal əsgərlər arasında panikadır. Orduda vəziyyət hətta o yerə çatıb ki, hərbçilər qorxudan teztez cəbhə xəttinin sağ və sol cinahlarında olan öz mövqelərimizi də düşmənlə səhv salaraq atəşə tuturlar".

## Erməni ordusunda "Qarabağ klanı"na qarşı açıq mübarizə başlayır

Erməni mediası silahlı qüvvələrin zəifliyini də etiraf edir və diqqəti ona yönəldir ki, artıq "Qarabağ klanı" Ermənistan ordusunda baş verən fərarilik, ölüm, zorlama, döyülmə, rüşvət, korrupsiya, intihar, təcavüz və digər nizamnamədənkənar halları gizlətməkdə çətinlik çəkir. Rəhbər şəxslərin təbeçiliyində olan əsgər və zabitlər problemlərini sosial şəbəkələr vasitəsilə xalqa bildirməyə başlayıblar.

Hərbi qulluqçu Merujan Aloyan təqib və işgəncəyə məruz qalacağını bilə-bilə öz "Facebook" səhifəsində belə bir paylaşım edib: "Ölkədə mövqe və sərvət üstündə aparılan klan savaşı orduya da sirayət etməyə başlayıb. Ordudakı "Qarabağ klanı" mənsubları rüşvət və maddi təminat əldə edə biləcəklər vəzifələrə təyin olunmağa can atırlar. Belə neqativ halların qurbanına çevrilmiş, fiziki və psixoloji cəhətdən düşdüyü mühitə uyğunlaşa bilməyən gənc əsgərlər xidmətin ilk günlərindən ya intihar etmək yolunu seçir, ya da özünə xəsarət yetirərək xidmətdən yayınmağa çalışırlar. Ermənistan ordusunda milli azlıq problemi var. Yeganə azlıq isə yezidi kürdlərdir. Gördükləri özbaşınalığı qəbul etməyən kürdlərlə ermənilərin tez-tez mübahisələri yaranır, hətta ölümlə nəticələnir. Hərbi hissələrdə əsgərlərin öz valideynləri ilə əlaqə saxlaması üçün yaradılan internet otaqlarını isə neqativ halların sızmasının qarşısını almaq məqsədilə bağlayıblar".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***